# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 10 (1512), 29 mart - 4 aprel 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.


## *Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin 30 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

2022-ci ildə Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 30 ili tamam olur.

Milli Olimpiya Komitəsi təsis olunduğu vaxtdan ölkədə idmanın dinamik inkişafı, Olimpiya ideallarının bərqərar olması və təşviqi üçün məqsədyönlü, ardıcıl fəaliyyət göstərmişdir. Ötən müddət ərzində Azərbaycanın idman infrastrukturunun yenilənərək ən müasir standartlara cavab verən səviyyəyə gətirilməsində, idmanın kütləviliyinin artırılmasında və sağlam həyat tərzinin təbliğində Milli Olimpiya Komitəsinin mühüm xidmətləri olmuşdur. İdmançılarımız Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmiş, yüksək nəticələr qazanmış və Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra Olimpiya Oyunlarında əldə olunan medalların sayını 53-ə çatdıraraq Azərbaycanın idman şöhrətini artırmışlar.

Milli Olimpiya Komitəsinin mötəbər idman yarışlarının təşkili istiqamətində təqdirəlayiq fəaliyyəti sayəsində ölkəmizdə 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları və 2019-cu ildə Avropa Yeniyetmələrinin Olimpiya Festivalı böyük uğurla keçirilmişdir. Əldə edilmiş nailiyyətlər beynəlxalq miqyasda əks-səda doğurmuş, Azərbaycanı dünyada idman ölkəsi kimi tanıtmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Milli Olimpiya Komitəsinin təsis olunmasının 30 illiyinin ölkənin ictimai həyatında əhəmiyyətini nəzərə alaraq, habelə Azərbaycan Respublikasında Olimpiya Hərəkatının daha da genişləndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə birlikdə Milli Olimpiya Komitəsinin 30 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 mart 2022-ci il***

# Prezident İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib



Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Bu yaxınlarda Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar, 16 medal qazanıldı, onlardan 7-si qızıl medaldır. Bu, çox böyük nailiyyətdir. Xüsusilə nəzərə almalıyıq ki, komanda hesabında bizim komandamız birinci yerə layiq görülmüşdür. Bu münasibətlə, ilk növbədə, idmançıları və onların məşqçilərini, Güləş Federasiyasını təbrik edirəm. Bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər.

*(ardı 2-ci səhifədə)*

# Suqovuşanda avarçəkmə üzrə ilk təlim-məşq toplantısının rəsmi açılışı olub




Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov dövlətimizin başçısına və birinci xanıma federasiyanın gələcək planları barədə məlumat verdi və videoçarx nümayiş etdirildi.

Diqqətə çatdırıldı ki, avarçəkmə idman növü ilə Azərbaycanda 1930-cu illərdən məşğul olunmağa başlanılıb. Sonralar ənənəvi idman növlərindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin diqqəti sayəsində Azərbaycanda 11 avarçəkmə klubu fəaliyyət göstərirdi. Müstəqilliyin ilk illərində Mingəçevirdəki baza baxımsız hala düşsə də, dövlətimizin başçısının tapşırığı ilə 2010-cu ildə bu baza ən yüksək standartlara cavab verən səviyyəyə çatdırılıb. Hazırda əsas məqsəd ölkəmizdə avarçəkmə idman növünün coğrafiyasını genişləndirmək və gəncləri bu idman növünə cəlb etməkdir.

Dövlətimizin başçısına və birinci xanıma avarçəkmə yarışlarında istifadə olunan qayıqlarla bağlı məlumat verildi. Bildirildi ki, avarçəkmənin 3 əsas növü var - akademik, kayak və kanoe. Akademik avarçəkmədə idmançılar 1, 2, 4 və 8 nəfərlik qayıqlarda mübarizə aparırlar. Yarış iştirakçıları qayığı geriyə hərəkət etdirirlər. Burada qayıq həm əl, həm ayaq, həm də bədən gücü ilə və sinxron şəkildə hərəkət etdirilir.

Azərbaycan Prezidenti təlim-məşq toplantısının rəsmi açılışını bildirən düyməni sıxandan sonra qarşı tərəfdəki metal konstruksiyadan "QARABAĞ AZƏRBAYCANDIR!" yazısı əks olunmuş banner açıldı, səmaya 7 min hava şarı buraxıldı və ardınca idmançılar məşq prosesinə başladılar.

Dövlətimizin başçısı və birinci xanım məşq prosesini və bayraq şousunu izlədilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xatirə hədiyyəsini imzaladı və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasına təqdim etdi.

Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Suqovuşan qəsəbəsinə bu səfəri işğaldan azad olunan ərazilərdə ilk idman tədbirinin təşkili ilə də yadda qaldı.

## *Azərbaycan Güləş Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 23 yaşadək güləşçilərin Avropa çempionatında yüksək nəticə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Güləş Federasiyasına 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 mart 2022-ci il***

## Azərbaycan nümayəndə heyəti Konya-2021-in missiya rəhbərlərinin birinci görüşündə iştirak edib

Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının missiya rəhbərlərinin birinci görüşü keçirilib. 47 ölkədən 70, Konyadan daha 9 ölkə nümayəndəsinin onlayn qatıldığı iclasda Türkiyənin gənclər və idman nazirinin müavini və Konya-2021-in baş əlaqələndiricisi Halis Yunus Ersöz və İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) birinci vitse-prezidenti Hamad Kalkaba çıxış ediblər.

İclasda oyunların təşkilatçılıq məsələlərinə dair açıqlamalar verilib və nümayəndə heyəti üzvlərini maraqlandıran suallar cavablandırılıb. Nümayəndə heyəti üzvləri yarış yerləri, idman obyektləri və "Olimpiya kəndi"ndə hazırlıq prosesi ilə yaxından tanış olublar.

MOK və İHİF İcraiyyə Komitələrinin və İHİF-in Əlaqələndirmə Komissiyasının üzvü Könül Nurullayeva da Konyada keçirilən tədbirdə iştirak edib. V İslam Həmrəyliyi Oyunlarının missiya rəhbərlərinin birinci görüşünə MOK-un idman idarəsinin baş məsləhətçisi Vaqif Əliyev və Beynəlxalq Layihələr üzrə Komissiyanın katibi Ceyhun Rəhmanov qatılıblar.

V İslam Həmrəyliyi Oyunları avqustun 9-18-də Konyada təşkil olunacaq.

**Yoldaşlıq görüşü**

## Azərbaycan - Latviya

*29 mart. Malta şəhər stadionu. Saat 15:00.*

# Prezident İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib

*(əvvəli 1-ci səhifədə)*

Mən bilirəm ki, idmanın bütün növlərində, o cümlədən güləş idman növündə ildən-ilə rəqabət artır, müxtəlif ölkələrdə güclü idmançılar üzə çıxır və artan rəqabət şəraitində Avropada birinci olmaq, əlbəttə, böyük nailiyyətdir. Dövlət Himnimiz yeddi dəfə səsləndirildi. Əlbəttə ki, həm idmançılar, həm idman mütəxəssisləri, bütün Azərbaycan vətəndaşları bu qələbəni böyük qürur hissi ilə qarşılayıblar.

Güləş Azərbaycanda idmanın bütün növləri arasında xüsusi yerə malikdir. Güləş bizim milli idman növümüzdür. Bütün dövrlərdə güclü güləşçilərimiz olubdur, həm sovet dövründə və xüsusilə müstəqillik dövründə. Bizim güləşçilərimiz Azərbaycanı müxtəlif yarışlarda ləyaqətlə təmsil ediblər. Bizim bir çox Olimpiya, dünya, Avropa çempionlarımız var. Əlbəttə, güləşin ənənələri Azərbaycanda kifayət qədər güclüdür və şadam ki, indi gənc nəsil bu ənənələri davam etdirir. Əminəm ki, bu yaxınlarda medallar qazanmış idmançılar arasında gələcəyin Avropa, dünya və Olimpiya çempionları olacaqlar. Nəsildən-nəslə keçən bu təcrübə, bilik, səriştə əminəm ki, Azərbaycanı bundan sonra da dünya miqyasında aparıcı güləş ölkələrindən birinə çevirəcəkdir. Hər halda Avropada gənclər arasında biz birinciyik və mənə verilən məlumata görə, çempionatda 34 ölkə iştirak edirdi. Bunu nəzərə alaraq, bir daha qeyd etmək istəyirəm ki, bu, doğrudan da böyük nailiyyətdir. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, bu gün mən sizi dəvət etmişəm ki, şəxsən özüm sizi təbrik edim və ümidvar olduğumu bildirim ki, gələcəkdə də siz eyni əzmkarlıqla ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz.

Son vaxtlar Güləş Federasiyasında gedən proseslər narahatlıq doğururdu və durğunluq hiss olunurdu. Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq özbaşınalıq hökm sürürdü. Əlbəttə ki, bu, nəticələrə də mənfi təsir göstərmişdir və bu, təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi, bu, baş verdi. Əminəm ki, federasiya indi həm buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək, - mənə məlumat verilib ki, artıq bu işlərə start verilib, - əlbəttə ki, idmançılara - həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara lazımi şərait yaradacaqdır. Mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən qarşıya məhz bu vəzifəni qoydum ki, biz idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik. Bax, bu iki əsas amil bizim böyük uğurlarımızın əsasını təşkil edirdi. Ona görə əminəm ki, Güləş Federasiyası Gənclər və İdman Nazirliyi ilə, məşqçilərlə birlikdə düzgün addımların atılmasına nail olacaq və bugünkü qələbəni mən görülən bu işlərin ilk təzahürlərindən biri kimi qəbul edirəm.

Bizim idmançılar uzun illərdir Azərbaycanı dünyada təbliğ edirlər. Mən dəfələrlə idman ictimaiyyəti ilə görüşlər əsnasında deyirdim ki, idman bizim dövlət siyasətimizdir və idman hər bir ölkənin qüdrətini əks etdirir. Çünki əgər beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında ölkələrin reytinqlərinə nəzər salsaq görərik ki, adətən inkişaf etmiş ölkələrin nümayəndələri daha da böyük uğurlar qazanırlar. Bu da təbiidir, çünki həm təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, hazırlıq işlərinin qurulması, iqtisadi baza - bütün bu amillər önəmli rol oynayır. Əlbəttə ki, dövlət siyasəti burada aparıcı məsələdir və Azərbaycan bu ölkələrin sırasındadır. Biz nəinki iqtisadi və digər sahələrdə, idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qorumalıyıq. Təsadüfi deyil ki, beynəlxalq idman qurumları Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Belə olmasaydı, Azərbaycanda iki dünya səviyyəli tədbir keçirilməzdi - həm Avropa Oyunları, həm də İslam Həmrəyliyi Oyunları. Bir ölkədə, bir şəhərdə cəmi iki il ərzində iki böyük tədbirin keçirilməsi beynəlxalq idman ictimaiyyətinin, federasiyalarının bizə olan münasibətinin əlamətidir. Biz bu yarışları yüksək səviyyədə keçirdik və idmançılarımız bizi sevindirdilər. Bizim beynəlxalq idman qurumları ilə, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri ilə sıx əlaqələrimiz var, beynəlxalq federasiyalarla sıx əlaqələrimiz var. Bu əlaqələr, əlbəttə ki, Azərbaycanda idman siyasətinin düzgün aparılmasında da bizə kömək göstərir. Ölkəmizdə keçirilmiş və bundan sonra keçiriləcək idman yarışları da müntəzəm xarakter almalıdır. Çünki ölkəmizin həm imkanları, həm Azərbaycanda qonaqpərvərlik, idman infrastrukturunun mövcudluğu sayəsində biz bütün istənilən idman yarışını keçirə bilərik. Məsələn, Avropa Oyunlarında 5 mindən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu Oyunlar Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilir. Yəni, bütün bu şəraiti biz yaratmışıq ki, həm idmançılar dövlətimizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın. Gənclər və idman naziri qarşısında, yeni rəhbərlik qarşısında qoyduğum vəzifələrdən biri də məhz budur - idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etmək. Çünki bizdə hər bir bölgədə müasir olimpiya idman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik. Seleksiya işi çox düzgün aparılmalıdır. Bölgələrdə bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə olaraq, onları düzgün seçmək və idmana, idman bölmələrinə cəlb etmək lazımdır.

Əlbəttə ki, tanınmış idmançılarımızın nümunəsi, Olimpiya, dünya, Avropa çempionlarının nümunəsi gənclər üçün də bir stimul olmalıdır. Onlar da bizim tanınmış idmançılar kimi olmağa çalışmalıdırlar. Bilirəm ki, bizim tanınmış, görkəmli idmançılarımız da həm öz idman uğurları ilə, həm də ki, davranışları ilə nümunə göstərirlər. Mən çox şadam ki, Azərbaycan idman ictimaiyyəti və bizim idmançılarımız, onların böyük əksəriyyəti həyatda da nümunədirlər və belə də olmalıdır. Bir sözlə, mən güləş idman növünün perspektivlərini çox müsbət qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə həm Olimpiya Oyunlarında, həm də dünya çempionatlarında bizim uğurlarımız kifayət qədər olacaq.

Bir məsələyə də toxunmaq istərdim. Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək. Hər halda, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim əlbəttə ki, güclü Ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir.

Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq. Bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik. Bəli, bu məğlubiyyətin səbəbləri var idi, ovaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. Belə də oldu.

Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz. Siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz. Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar. Siz də beynəlxalq yarışlarda əlbəttə ki, müxtəlif ölkələrdə olursunuz. Əminəm, bəlkə də siz gənclər yox, - çünki siz təzə-təzə beynəlxalq yarışlarda iştirak etməyə başlamısınız, - amma böyüklər, məşqçilər, idman mütəxəssisləri mütləq görür ki, Azərbaycana münasibət nə dərəcədə dəyişmişdir. Çünki biz qalib ölkəni, müzəffər xalqı təmsil edirik. Biz müharibəni ləyaqətlə aparmışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq. Halbuki xalqımızın ürəyində qisas hissi həmişə var idi. Çünki ermənilər tərəfindən bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və qisas hissi mütləq olmalı idi. Ancaq mən demişdim ki, düşməndən intiqamı döyüş meydanında alacağıq. Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər.

Mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki indi dünyada bir çox yerlərdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür. Əlbəttə ki, idmançılarımız üçün bu, əlavə bir stimuldur. Çünki biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz. Çünki bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq.

Əlbəttə ki, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir. Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır. İndidən federasiyalar, Gənclər və İdman Nazirliyi artıq layihələri təqdim etməlidir. Çünki şəhərlərin Baş planlarında idman qurğularının yerləşməsi nəzərdə tutulur. Amma bunlar hansı formada olacaq, memarlığı necə olacaq, bunu artıq müvafiq federasiyalar, Gənclər və İdman Nazirliyi təqdim etməlidir.

Bir sözlə, əziz dostlar, uşaqlar, məşqçilər, mütəxəssislər, sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

Sərbəst güləş üzrə Azərbaycan yığmasının baş məşqçisi **Namiq Abdullayev**: Cənab Prezident, icazənizlə, istərdim federasiyamız adından, güləşçilərimiz adından bu uğurla bağlı bir neçə kəlmə söyləyim.

Hörmətli Prezident, əvvəlcə bizi dəvət etdiyiniz və bizimlə görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası adından, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümüzü bildirirəm. Sizin idmana diqqət və qayğınızı hər zaman hiss etmişik. Bolqarıstanda keçirilən 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz də bu diqqətin göstəricisidir. Bildiyiniz kimi, millimiz Avropa çempionatında hər üç güləş növü üzrə uğurlu çıxış etdi. Yunan-Roma güləşi üzrə 2 qızıl, 1 gümüş və 2 bürünc, qadın güləşi üzrə 1 qızıl, 1 gümüş və 2 bürünc, sərbəst güləşdə isə 4 qızıl və 3 bürünc medal qazandıq. Sərbəst güləşçilərimiz komanda hesabında Avropa çempionu oldu. Yunan-Roma güləşçilərimiz isə üçüncü yeri tutdu. Ümumilikdə 16 medal qazandıq. Azərbaycan 7 qızıl, 2 gümüş və 7 bürünc medal qazanaraq ümumi sıralamada birinci yeri tutdu. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir.

Cənab Prezident, fürsətdən istifadə edib onu da demək istərdim ki, bu il noyabr ayında Azərbaycanda yunan-Roma güləş növü üzrə dünya kuboku keçiriləcək.

Möhtərəm Prezident, bizi qarşıda daha mötəbər yarışlar gözləyir. Əminliklə deyə bilərəm ki, bu görüş bizim üçün böyük stimul olacaq. Gələcək yarışlarda da uğurlar qazanaraq Sizi və xalqımızı sevindirmək üçün əlimizdən gələni edəcəyik. Diqqətiniz üçün sağ olun.

Azərbaycan Güləş Federasiyasının prezidenti **Mikayıl Cabbarov**: Cənab Prezident, ilk növbədə, mən dərin təşəkkürümü bildirmək istəyirəm ki, Siz sıx qrafikinizdə vaxt tapıb bizi qəbul etmisiniz, tövsiyələrinizi vermisiniz, həm dövlətimizin başçısı kimi, həm də ölkənin Milli Olimpiya Komitəsinin rəhbəri kimi. Güləş Federasiyasında gedən işlərlə bağlı Sizin dəyərli tövsiyələriniz bizim üçün əsasdır. Fürsətdən istifadə edərək, mən Sizi əmin etmək istərdim ki, tapşırıqlarınıza uyğun olaraq, həm kütləvi idmanın, xüsusilə gənclər və yeniyetmələr arasında, həm də peşəkar idman nailiyyətlərinin təmin edilməsi üçün fəaliyyətimizi həmkarlarımız Gənclər və İdman Nazirliyi ilə sıx qururuq. Söylədiyiniz kimi, bu, bizim milli idman növümüzdür və biz hər zaman bundan ruhlanırıq. Etibarınıza, etimadınıza görə təşəkkür edirik. Söz veririk ki, gələcəkdə də bayrağımızı ləyaqətlə təmsil etmək üçün bizim bütün idmançılar və məşqçilər əllərindən gələni edəcəklər, biz də zəruri dəstək verəcəyik. Sizə bir daha təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

## İdman gimnastikası üzrə Azərbaycan birinciliyinə və Bakı çempionatına yekun vurulub

Milli Gimnastika Arenasında keçirilən qadın idman gimnastikası üzrə 6-cı, kişi idman gimnastikası üzrə 27-ci Azərbaycan birinciliyi və Bakı çempionatına yekun vurulub.



Yarışda "Ocaq Sport", Bakı Gimnastika Məktəbi, Sumqayıt Olimpiya İdman Kompleksi, Sumqayıt İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbi və Balakəni təmsil edən idmançılar qüvvələrini sınayıblar.

İki gün davam edən yarışda idmançılar balacalar, uşaqlar, yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyalarında yarışıblar.

Ümumilikdə 69 idmançı müxtəlif alətlərdə çıxışlarını hakimlərə təqdim edərək, öz aralarında ən güclünü müəyyənləşdiriblər.

Qeyd edək ki, iki illik fasilədən sonra xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirləri ilə əlaqədar olaraq tamaşaçılar Milli Gimnastika Arenasında martın 16-17-də keçirilmiş bədii gimnastika üzrə Azərbaycan çempionatında olduğu kimi, idman gimnastikası üzrə yarışları da izləyiblər.

* * *

Martın 31-dən aprelin 3-dək Milli Gimnastika Arenasında kişi və qadın idman gimnastikası üzrə dünya kuboku yarışları keçiriləcək. Ölkəmizin gimnastika növləri üzrə bu il təşkil




edəcəyi dördüncü beynəlxalq yarışda 35 ölkədən 151 idmançı qüvvəsini sınayacaq. Dördgünlük yarışların ilk iki günündə təsnifat, sonrakı iki günündə isə final mərhələləri təşkil olunacaq.

Turnirdə, həmçinin ən yüksək icra xalını toplamış gimnastlara ənənəvi "AGF Trophy" kuboku da təqdim ediləcək.

Dünya kubokunda ölkəmizi Mənsum Səfərov (sərbəst hərəkətlər), Ağamurad Qəhrəmanov (sərbəst hərəkətlər, dayaqlı tullanma, paralel qollar, turnik), İvan Tixonov (dəstəkli at, dayaqlı tullanma, paralel qollar, turnik), Cavidan Babayev (halqa), Nikita Simovov (halqa), Samirə Qəhrəmanova (dayaqlı tullanma, gimnastika tiri, sərbəst hərəkətlər), Milana Minakovskaya (müxtəlif hündürlüklü qollar, gimnastika tiri, sərbəst hərəkətlər) təmsil edəcəklər.

Yarışlarda tamaşaçı qismində iştirak edəcək şəxslər etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatına və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədə, COVID-19-a qarşı peyvənd əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatına (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) malik olmalıdırlar.

* * *

Bakıda "Global Woman Summit"in qala gecəsi keçirilib. Qala gecədə Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, İspaniya, İsveçrə, İran, Birləşmiş Ərəb Əmirlikləri, Tunis, Qətər və digər müxtəlif ölkələrdən böyük nüfuza sahib olan xanımlar, yaradıcı peşə sahibləri, iqtisadçılar, alimlər, həkimlər, idmançılar və müxtəlif brendlərin təsisçiləri yer alıblar. Tədbirdə müxtəlif peşələrdə çalışan uğurlu xanımlar ayrı-ayrı nominasiyalar üzrə mükafatlandırılıblar.




IV İslam Həmrəyliyi Oyunlarının qalibi, Yay Universiadasının ikiqat gümüş mükafatçısı, Azərbaycan gimnastika tarixində Olimpiya Oyunlarında bədii gimnastika üzrə fərdi proqramda iştirak etmiş ilk azərbaycanlı gimnast Zöhrə Ağamirova idman sahəsində qazandığı nailiyyətlərə görə "Uğurlu gimnast" nominasiyasında mükafata layiq görülüb.

* * *

Niderlandın Alkmaar şəhərində batut gimnastikası üzrə "Dutch Trampoline Open 2022" yarışı keçirilib. 16 ölkədən batutçuların iştirak etdiyi yarışda ölkəmizi yığma komandamızın üzvləri Selcan Mahsudova, Maqsud Mahsudov və Nicat Mirzəyev təmsil ediblər. Batutçularımız uğurla çıxış edərək ölkəmizə 1 qızıl və 2 gümüş medal qazandırıblar.

Gimnastımız N.Mirzəyev 51,985 xalla bütün rəqiblərini üstələyərək çempion olub. Selcan (52.530 xal) və Maqsud (45.940 xal) Mahsudovlar isə müvafiq olaraq, gümüş medal əldə ediblər.

## "Bakı Marafonu - 2022"yə qeydiyyat başlayıb

Mayın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu - 2022" keçiriləcək. 2016-cı ildən təşkil olunan Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır. "Küləyə qalib gəl" şüarı altında beşinci dəfə keçirilən Bakı marafonu bu il fərqli marşrutda təşkil ediləcək. Yarışın start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında olacaq və 21 kilometrlik məsafəni əhatə edən marafon bu marşrut üzrə keçiriləcək: Dövlət Bayrağı Meydanı - Dənizkənarı bulvar-Bakı Beynəlxalq Dəniz Vağzalı-Neftçilər prospekti-Bakı Ağ şəhər bulvarı- Xəqani Rüstəmov küçəsi - Bakı Ağ şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi-Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, Cavanşir körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi-Neftçilər prospekti (Hökumət evi, Muzey Mərkəzi, Kukla teatrı, Qız qalası, "Azneft" dairəsi), Bakı Funikulyoru, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca hərəkət edərək (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı.

Martın 25-də başlayan qeydiyyat prosesi mayın 10-dək davam edəcək. 18 yaşdan yuxarı şəxslər bu müddətdə Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Dəniz Mall") qeydiyyat məntəqələrinə və ya "Bakı Marafonu - 2022"nin saytına - www.marathon.az müraciət edə bilərlər. Qeydiyyat zamanı müvafiq anket formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr eyni zamanda tələbə vəsiqəsinin surətini) təqdim etmək və iştirak üçün müəyyən olunmuş vəsaiti ödəmək lazımdır.

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün ödəniş məbləği 20 AZN-dir. Korporativ olaraq qoşulanlar isə info@marathon.az elektron poçt ünvanına yazaraq müraciət edə bilərlər.

Tələbələrin marafonda iştirakı üçün vəsaiti Heydər Əliyev Fondu ödədiyindən, onlar qeydiyyat zamanı ödəniş etməyəcəklər.




"Bakı Marafonu - 2022"nin eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsi və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə təşkil olunur.

"Bakı Marafonu - 2022"-nin mükafatlandırılması iki kateqoriyada olacaq. Marafonun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3 000 AZN, 2-ci yerin qalibi 2 000 AZN, 3-cü yerin qalibi isə 1000 AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaq.

Bundan əlavə, qadın və kişi kateqoriyası üzrə finiş xəttini ilk keçən tələbələr arasında "Gənc ol" (Azercell), eləcə də "finiş xəttini ilk keçən ən yaşlı iştirakçı", "finiş xəttini ilk keçən korporativ iştirakçı", "ən kreativ kostyum" nominasiyalarında da mükafatların təqdimatı nəzərdə tutulur.

Bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə sertifikatlar təqdim olunacaq. Finiş xəttini keçən ilk 1000 iştirakçı isə "Bakı Marafonu - 2022"nin xüsusi medalları ilə təltif ediləcək.

Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı Meydanında əyləncə zonası yaradılacaq. Burada müxtəlif əyləncə proqramları, yarışlar, idman tədbirləri keçiriləcək. Şəhərin müxtəlif ünvanlarında da əyləncə zonaları şəhər sakinlərinin ixtiyarına veriləcək.

## "Böyük dəbilqə" turnirində 17 cüdoçumuz yarışacaq

Aprelin 1-3-də Türkiyənin Antalya şəhərində cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək. 69 ölkədən 585 (351 kişi, 234 qadın) cüdoçunun iştirak edəcəyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayacaqlar. Komandamız turnirdə 17 (13 kişi, 4 qadın) cüdoçu ilə təmsil olunacaq.



Yarışda kişilər arasında Rövşən Əliyev, Turan Bayramov (hər ikisi -60 kq), Orxan Səfərov, Yaşar Nəcəfov (hər ikisi -66 kq), Rüstəm Orucov, Telman Vəliyev (hər ikisi -73 kq), Murad Fətiyev, Elcan Hacıyev (hər ikisi -81 kq), Rüfət İsmayılov (-90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi -100 kq), Uşangi Kokauri, İmran Yusifov (hər ikisi +100 kq) mübarizə aparacaq. Aparıcı idmançılarımızdan Hidayət Heydərov (73 kq) və Məmmədəli Mehdiyev (90 kq) isə bu yarışda iştirak edəcək heyətdə yer almayıblar.

Qadınların yarışında isə komandamız Leyla Əliyeva, Şəfəq Həmidova (hər ikisi -48 kq), Gültac Məmmədəliyeva (-52 kq) və Günel Həsənlidən (-70 kq) ibarət heyətlə təmsil olunacaq.

## Fiqurlu konkisürənlərimiz dünya çempionatında iştirak ediblər

Azərbaycan fiqurlu konkisürənləri Fransanın Monpelye şəhərində keçirilən dünya çempionatında iştirak ediblər. Ölkəmiz yarışda 4 idmançı - Vladimir Litvintsev, Yekaterina Ryabova, həmçinin buz üstündə rəqs üzrə Yekaterina Kuznetsova və Aleksandr Kolosovski ilə təmsil olunub.



Buz üstünə çıxan təmsilçimiz Y.Ryabova dünya çempionatının qısa proqramında 65,50 xal toplayaraq 9-cu yerdə qərarlaşıb. Topladığı xalların nəticəsinə uyğun olaraq təmsilçimiz növbəti mərhələyə yüksəlib. Atletimiz növbəti dəfə "Notre Dame de Paris" kompozisiyasının müşayiəti ilə buz üstünə çıxıb. Münsiflərin qiymətləndirməsinə əsasən Yekaterina 188,50 xal toplayaraq 9-cu yeri tutub.

Yarışda ölkəmizi təmsil edən Vladimir Litvintsev isə qısa proqramda 85,83 xal toplayıb. Təmsilçimiz bu nəticə ilə 13-cü olaraq sərbəst proqramda çıxış etmək hüququ qazanıb. Fiqurlu konkisürənimizin sərbəst proqram üzrə çıxışı isə 147,79 xalla qiymətləndirilib. Beləliklə, təmsilçimiz yekunda 233,62 xal toplayaraq, öz qrupunda 26-cı yerdə qərarlaşıb.

Digər təmsilçilərimiz Aleksandr Kolosovskiy və Yekaterina Kuznetsova da buz üstündə rəqs üzrə çıxış ediblər. Cütlüyümüz 49,12 xal toplasalar da növbəti mərhələyə yüksəlmə şansını əldən veriblər. Konkisürənlərimiz uğursuzluqla üzləşərək 31 cütlük arasında 29-cu olub.

## Avropa kuboku turnirindən 4 medal

Yunanıstanın paytaxtı Afinada gənc cüdoçular arasında Avropa Kuboku turniri keçirilib. 27 ölkədən 300 (188 oğlan, 112 qız) idmançının iştirak etdiyi yarışda Azərbaycan milli komandası da mübarizə aparıb. Komandamız yarışda 20 (15 oğlan, 5 qız) cüdoçu ilə təmsil olunub. Cüdoçularımız Avropa kuboku turnirini 4 medalla başa vurublar. Qızıl medalları yığmamızın aktivinə Məhərrəm İmamverdiyev (81 kq) və Kənan Nəsibov (+100 kq) yazdırıblar. Ruslan Nəsirli (100 kq) və Hüseyn Məmmədov (+100 kq) isə turnirin gümüş medallarını qazanıblar. Komandamız 27 ölkə təmsilçisinin iştirak etdiyi turniri ümumilikdə 2 qızıl və 2 gümüş medalla oğlanlar arasında ikinci yerdə başa vurub. Ümumi komanda hesabında isə yığmamız üçüncü pillədə qərarlaşıb.

Qeyd edək ki, yarışda Azərbaycan Respublikasının Yunanıstanki fövqəladə və səlahiyyətli səfiri Anar Hüseynov qaliblərin mükafatlandırma mərasimində iştirak edib.



# Avropa çempionatında uğurla çıxış edən boksçularımızla görüş keçirilib

***Azərbaycan Boks Federasiyasının (ABF) prezidenti Sahil Babayev Xorvatiyanın Poreç şəhərində keçirilən 22 yaşadək boksçular arasında Avropa çempionatında uğurla çıxış etmiş milli komanda ilə görüşüb.***



Görüşdə S.Babayev Avropa çempionu Nicat Hüseynov (51 kq), qitə birinciliyinin gümüş medalçısı Ruslan Qədirov (54 kq), bürünc mükafatçılar Cəlal Qurbanov (63,5 kq) və Nəbi İsgəndərovu (67 kq) nailiyyətləri münasibəti ilə təbrik edərək onlara uğurlar arzulayıb.

Sahil Babayev bildirib ki, 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanaraq 10 ildən sonra Azərbaycan rekordunu təkrarlamaq və Avropa çempionatında təmsil olunduğumuz 7 çəki dərəcəsində 4 medal qazanmaq yüksək nəticədir. ABF prezidenti vurğulayıb ki, yığmamız U-22-lərin yarışında standart müəyyənləşdirib. Növbəti yarışlarda da komanda üzvlərinin ən azı yarısının medalla Vətənə dönməsi üçün gözəl ənənənin təməli qoyulub.

Federasiya prezidenti görüləcək bütün tədbirlərin ana xəttində məhz 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarının dayandığını bildirib. O, Olimpiadada da boksçularımızın qızıl medal qazanmaqla idman tariximizdə yeni səhifə açacağına inam ifadə edib. S.Babayev, həmçinin Poreçdə çıxış etmiş idmançıların fiziki və mənəvi-psixoloji hazırlıq səviyyəsi ilə maraqlanıb.

Federasiyanın İdarə Heyətinin üzvü, Xorvatiyadakı Avropa çempionatına rəhbərlik edən Rövşən Hüseynov boksa göstərilən dövlət qayğısı sayəsində gələcəyin komandasının formalaşdığını və bu boksçuların bir neçə il ölkəmizi beynəlxalq arenada layiqli təmsil edəcəklərini bildirib. Yığmanın böyük məşqçisi Nəriman Abdullayev isə daha uğurlu çıxış üçün məşqlərdə intensivliyi artırıb, səhvləri aradan qaldırmağa çalışacaqlarını deyib.

Avropa çempionu Nicat Hüseynov bu titulla kifayətlənməyəcəyini və növbəti yarışlarda da məqsədinin ancaq Azərbaycan himnini səsləndirmək olacağını söyləyib. Digər mükafatçılar və boksçular da əsas hədəflərinin Avropa, dünya çempionatları və Olimpiadada inamlı çıxış olduğunu qeyd ediblər.

Görüşdə iştirak edən ABF-nin İdarə Heyətinin üzvləri və baş katibi komandamızın Avropa çempionatındakı çıxışını uğurlu hesab ediblər. Federasiya prezidenti onlara növbəti təlim-məşq toplanışları və yarışlara hazırlıqla bağlı tapşırıqlarını verib.

Qeyd edək ki, qitə çempionatında 13 çəkidən 7-də təmsil olunan yığmamız 1 qızıl, 1 gümüş və 2 bürünc medala sahib olub. Yığmamıza qızıl medalı 51 kq çəki dərəcəsində çıxış edən Nicat Hüseynov qazandırıb. Komandamızın digər üzvlərindən Ruslan Qədirov (54 kq) gümüş, Cəlal Qurbanov (63,5 kq) və Nəbi İsgəndərov (67 kq) isə bürünc medala sahib çıxıb. Komandamız bu nəticə ilə qitə birinciliyini dördüncü pillədə başa vurub.

Qeyd edək ki, 4 medal qazanan millimiz Poreçdəki Avropa çempionatında Azərbaycan boks tarixinin 10 illik rekordunu təkrarlayıb. Həmçinin komandamız 2012-ci ildə Rusiyada və bu il Xorvatiyada təşkil olunan qitə birincilikləri istisna olmaqla, heç vaxt finalda 2 idmançı ilə mübarizə aparmayıb.

# Federasiya kubokunun birinci mərhələsinin qalibləri müəyyənləşib

Trek velosipedi üzrə Federasiya kubokunun birinci mərhələsi keçirilib. Azərbaycan Velosiped İdmanı Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, iki gün davam edən yarışda 50-yə yaxın idmançı iştirak edib. Reqlamentə əsasən, iştirakçılar qrup ötüşməsində mübarizə aparıblar və qaliblər iki yarış gününün cəminə əsasən müəyyənləşib. Belə ki, qızlar arasında fəxri kürsünün ən yüksək pilləsinə Viktoriya Sidorenko qalxıb. Lalə Abdürəhmanova ikinci, Radha Şabanova üçüncü yerləri tutublar. Kişilər arasında Musa Mikayılzadə ən yaxşı göstərici ilə birinci yerə layiq görülüb. Kamran Mirzəxanov və Şahin Eyvazov isə müvafiq olaraq, ikinci və üçüncü yerləri bölüşüblər.



İdmançılara mükafatları Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov təqdim ediblər. Qaliblər medal, diplom və qiymətli hədiyyələrlə təltif ediliblər.

# "Neftçi" Yüksək Liqada turnir cədvəlinə liderlik edir

Kişi voleybolçular arasında Azərbaycan Yüksək Liqasında III dövrənin növbəti oyunları keçirilib. "Murov" Voleybol Klubunun idman zalında təşkil olunan çempionatın XIII turuna "Neftçi" "Sərhədçi" matçı ilə start verilib. Pərviz Səmədovun komandası hər üç hissədə qalib gəlib - 3:0 (25:7, 25:18, 25:15). Günün ikinci qarşılaşması "Ekspress" və MOİK komandaları arasında olub. Bu qarşılaşmada da qalib üç hissədə müəyyən olunub. MOİK voleybolçuları 3 xalı rəqibini 3:0 (25:14, 25:8, 25:21) hesabı ilə məğlub etməklə əldə ediblər.

Beləliklə, XIII turdan sonra "Neftçi" 28 xalla turnir cədvəlinə liderlik edir, bu turda istirahət edən "Murov"un 26, MOİK-in 18, "Ekspress"in 6, "Sərhədçi" komandasının isə xalı yoxdur.

# Azərbaycan çempionatında 3-cü tura yekun vurulub

Kişi həndbolçular arasında Azərbaycan çempionatında 3-cü turun oyunları keçirilib. Günün ilk qarşılaşmasında "Bakı" komandası U-16 kollektivi üzərində çətinlik çəkmədən qələbə qazanıb - 38:24.

Digər oyunda U-18 İdman Akademiyası ilə qarşılaşan "Məhsul" həndbolçuları meydanı 30:15 hesablı məğlubiyyətlə tərk ediblər.

Turun son qarşılaşmasında "Təhsil" klubu "Gənclər Birliyi" kollektivinə böyük hesabla qalib gəlib - 42:19.

Qeyd edək ki, ölkə çempionatının 4-cü turunun bütün görüşlərinin aprelin 2-də keçirilməsi nəzərdə tutulub. Tura



U-18 İdman Akademiyası - "Bakı", "Azərsu"-"Qarabağ", "Gənclər Birliyi"- "Məhsul", "İdman Akademiyası" - "Azəryol", U-16 - "Təhsil" matçları ilə yekun vurulacaq.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik* **olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




# "Turan Tovuz" klubunda yeni baş məşqçi



"Turan Tovuz" futbol klubunun Müşahidə Şurasının iclası keçirilib.

Müzakirələrdən sonra Müşahidə Şurasının üzvü Əfqan Talıbovun baş məşqçi vəzifəsinə namizədliyi irəli sürülüb.

Onun namizədliyi dəstəklənib və əsas komandaya baş məşqçi təyin olunub. Ə.Talıbovla mövsümün sonunadək müqavilə imzalanıb. O, bu vəzifədə Rövşən Babayevi əvəzləyib.

Birinci divizionda çıxış edən Tovuz təmsilçisi 17 xalla 13 komanda arasında 10-cu pillədə qərarlaşıb.

# Azərbaycan Premyer Liqası üçüncü pillədə yer alıb

Beynəlxalq İdman Araşdırmalar Mərkəzi (CIES) baş məşqçilərin orta iş müddətinə görə dünyanın ən yaxşı 90 futbol çempionatının reytinq siyahısını açıqlayıb. Azərbaycan Premyer Liqası 1069 günlük göstərici ilə üçüncü pillədə qərarlaşıb. Premyer Liqa UEFA sıralamasında da eyni mövqedə yer alıb.

Birinci pillədə Şimali İrlandiya Premyer Liqası (1563 gün), ikinci sırada isə Uels Premyer Liqası (1348) yer alır.

Baş məşqçilərin istefasının ən çox gerçəkləşdiyi ölkələrdən biri Türkiyədir. Türkiyə Super Liqası 217 günlə dünya reytinqində 80-ci, Avropada isə 46-cı yerdədir.

# Stolüstü tennis üzrə Bakı birinciliyinin qalibləri müəyyənləşib

"Şüa" İdman-Sağlamlıq Kompleksində stolüstü tennis üzrə gənclər və yeniyetmələr arasında Bakı şəhər birinciliyi keçirilib. Maraqlı mübarizə şəraitində keçən yarışda 2004 -2006, 2007-ci illər təvəllüdlü və daha azyaşlı oğlan və qızlar arasında qaliblər müəyyənləşib. Belə ki, 2004-2006-cı illər təvəllüdlü idmançıların yarışında qızlar arasında Xədicə Əbilzadə, oğlanların mübarizəsində Emin Məmmədov qalib olublar. Banu Baytallı 2007-ci il təvəllüdlü və daha az yaşlı qızlar, Rüstəm Hacılı isə eyni yaş qrupunda oğlanların turnirində birinci yeri tutublar. Mükafatçılar diplom və medallarla təltif olunublar.



# Badmintonçumuz mübarizəni dayandırdı

Badmintonçumuz Edi Reski Dviçayo İsveçrənin Bazel şəhərində keçirilən "YONEX Swiss Open 2022" turnirində çıxış edib. Mübarizəyə təsnifat mərhələsindən başlayan Edi 3 set davam edən görüşdə finlandiyalı rəqibi Heino İkkaya 2:1 (21-19,19-21,21-18) qalib gələrək kişi badmintonçuların şəxsi yarışında nüfuzlu turnirin əsas mərhələsinə yüksəlib.

Onaltıdabir finalda kanadalı Yanq Brianla qarşılaşan badmintonçumuz ilk setdə rəqibinə 12-21 hesabı ilə uduzsa da, ikinci seti 21-18 hesablı üstünlüklə başa vurub. Kanadalı idmançı oyun zamanı dizindən zədə aldığından görüşü davam etdirə bilməyib. Beləliklə, Edi elit seriyalı turnirdə 1/8 finala yüksəlib.

Dviçayo 1/4 finala yüksəlmək uğrunda keçirilən görüşdə hindistanlı Samir Vermaya 0:2 (21-23,7-21) hesabı ilə uduzaraq mübarizəni dayandırıb.



— XƏBƏRLƏR —

## Karateçimiz Sarayevoda üçüncü oldu

Azərbaycan karateçisi Asiman Qurbanlı Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Qran-Pri turnirinin Top Ten yarışında bürünc medal qazanıb. 12 idmançının dəvət aldığı turnirdə A.Qurbanlıdan başqa Emil Pavlov və Petar Zaborski (hər ikisi Şimali Makedoniya), Nikola Maloviç (Monteneqro), Gabor Harspataki və Tadissi Matial (hər ikisi Macarıstan), Rijad Dzuho (Bosniya və Herseqovina), Miçele Martina (İtaliya), Erman Eltemur (Türkiyə), Ancelo Kvesiç və Enes Qariboviç (hər ikisi Xorvatiya), həmçinin Boqdan Trikoş (Serbiya) mükafatlar uğrunda mübarizə aparıb.



4 qrupa bölünən idmançılar mütləq çəki dərəcəsində döyüşüblər. Dairəvi sistemlə keçirilən yarışın mükafatçıları topladığı ballar əsasında təyin edilib. Qalibə 2 min avro, ikinci yeri tutan idmançıya min avro, üçüncü pilləyə çıxanların hər birinə isə 500 avro pul mükafatı verilib.

* * *

Karate üzrə 21 yaşadək qadınlardan və böyüklərdən ibarət Azərbaycan millisinin 3 üzvü Slovakiyanın paytaxtı Bratislavadakı 42-ci Qran-pridə bürünc medal qazanıb. Xumar Əlibəyova (50 kq) 21 yaşadək qadınlarda və böyüklər arasında, İlahə Qasımova (55 kq) isə böyüklərin yarışında bürünc medala sahib olub.

Tokio-2020 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı İrina Zaretska (68 kq) bürünc medal görüşündə qələbəni əldən verib.

Qeyd edək ki, Azərbaycan komandası yarışda 10 idmançı ilə təmsil olunub.

## "Olimpiya ümidləri" layihəsi çərçivəsində növbəti məşq

Azərbaycan Milli Karate Federasiyasının 14-15 yaşlı yeniyetmələrdən ibarət milli komandanın heyətinə daha yüksək səviyyəli idmançıların cəlb olunması məqsədilə həyata keçirdiyi yeni layihə davam edir. Azərbaycan Milli Karate Federasiyasından verilən məlumata görə, layihə



çərçivəsində növbəti məşqi kişilərdən ibarət milli komandanın baş məşqçisi, Əməkdar məşqçi Qurban Tağıyev keçib. Məşqçi Novruz Əliyevin assistentliyi ilə təşkil olunan məşqdə paytaxt və bölgələrdən 25-dək idmançı iştirak edib.

"Olimpiya ümidləri" layihəsində 12-13 yaşlı uşaqlar arasında respublika çempionatının mükafatçıları iştirak edirlər. Belə ki, həmyaşıdları arasında fərqlənən perspektivli karateçilər həftədə bir dəfə xüsusi hazırlıq keçirlər. Məşqlər tanınmış karateçilər və milli komandaların məşqçilər heyəti tərəfindən keçirilir.

## Azərbaycan döyüşçüsü Qazaxıstanda qələbə qazandı

"ASED Fighting Championship" (AFC ASED) liqasının iştirakçısı və Şəhid Rafət Qulamov adına döyüş klubunun təmsilçisi Amil Mustafayev növbəti qələbəsini qazanıb. Təmsilçimiz Qazaxıstanın "Octagon" liqasının 29-cu seriyasında gücünü sınayıb. MMA döyüşçümüzü yerli idmançı Amonjol Jumabayev ilə qarşılaşıb.

Üç raundun nəticəsinə görə, hakimlər idmançımızı qalib elan ediblər.

Mütəxəssis rəyi

# *Sahib Rzayev:* "İdmana həvəsi olan uşaqları sınaq yarışlarına dəvət edirik"

Tarixən böyük uğurları ilə dünyada tanınan Azərbaycan idmanı yeni dövrə qədəm qoyub. Son bir ildə baş verən struktur dəyişiklikləri idmandan da yan keçməyib. Məqsəd ölkəmizdə sağlam gənc nəslin formalaşması və yeni adların tanınmasına xidmət edir. Dünyada idman sürətlə inkişaf edir, yeni nailiyyətlər qazanılır. Müasir dövrümüzdə qabaqcıl yeniliklər bir-birini əvəz etsə də, burada mütəxəssis rəyi əsas meyar olaraq öz nüfuzunu qorumaqdadır. İllərdən bəri idman sahəsində qazanılan təcrübələr ənənə olaraq nəsillərdən nəsillərə ötürülməlidir. Ölkəmizdə bu sahədə təcrübəsi olan kifayət qədər mütəxəssislər var. "Olimpiya dünyası" qəzetinin "Mütəxəssis rəyi" rubrikasının budəfəki qonağı karate üzrə Əməkdar məşqçi, Əməkdar idman ustası, 7-ci dan, beynəlxalq dərəcəli hakim, ikiqat dünya mükafatçısı, ikiqat Avropa çempionu, dünya kubokunun, açıq Amerika çempionatının qalibi, Azərbaycan Milli Karate Federasiyasının Gəncə regional şöbəsinin sədri Sahib Rzayevdir.

***- Sahib müəllim, məlumdur ki, dünyanı öz cənginə alan pandemiya uzun müddət bütün sahələrə mənfi təsir etdi. Bu təsir idmandan da yan keçmədi, geriləmələrə səbəb oldu. Sədrlik etdiyiniz qurum bu geriləmələri aradan qaldırmaq üçün hansı işləri planlaşdırır?***

- Dünya tədricən postpandemiya dövrünə qədəm qoyub. Hər bir sahədə olduğu kimi cəmiyyət yeni mərhələyə başlayıb. Bu, idman sahəsini də özündə ehtiva edir. Artıq bütün dünyada olduğu kimi, ölkəmizdə də kütləvi idman tədbirlərinin keçirilməsinə müvafiq şərait bərpa edilib. Pandemiya dövründə yarımçıq qalmış tədbirləri yenidən təşkil etmək üçün əla fürsət yaranıb. Belə ki, Milli Karate Federasiyasının Gəncə regional şöbəsi yeni ildən etibarən idman növləri üzrə təbliğat-təşviqat kompaniyasına start verib. Qurumun nümayəndələri orta ümumtəhsil məktəblərində tədbirlər keçirib, uşaqların idmana cəlb olunmasına çalışırlar. Bu işdə valideynlərlə görüşüb onlara, uşaqlarının sağlam formalaşması üçün idmana cəlb olunmasını məsləhət görürük. İdmana həvəsi olan uşaqları sınaq yarışlarına dəvət edirik. Regional Mərkəzin təşkil etdiyi yarışlarda çalışırıq ki, daha çox uşaq və yeniyetməni dəvət edək. Bu gördüyümüz işin əsasını təşkil edir.

***- İdmanın inkişafı üçün mövcud infrastruktur və təcrübəli kadrlar vacibdir. Həmin kadrların iş təcrübəsi planların uğurla həyata keçməsinə zəmin yaradır. Bu barədə nə deyərdiniz?***

- Məlumdur ki, bu gün ölkəmizdə 50-yə yaxın Olimpiya İdman Kompleksi tikilib. Müasir standartlara cavab verən həmin qurğulara idmançılar üçün hər zaman açıq olmalıdır. Qeyd etdiyiniz kimi, belə bir şəraitdə idmançıların yetişməsi üçün təcrübəli mütəxəssislərə ehtiyac var. Həmin mütəxəssislər idmana həvəsi olan və bu sahədə ilk addımların, atan uşağın fiziki imkanlarını, psixoloji durumunu mütləq nəzərə almalıdır. Təcrübələr göstərir ki, bir insan fəaliyyət dairəsindən asılı olaraq yalnız potensial qüvvəsinə uyğun olaraq lazımi nəticəni verə bilir. Məşqçilər nəzərə almalıdırlar ki, uşaqları fiziki və mənəvi cəhətdən birbaşa yükləmək olmaz. Hər şey tədricən baş verməlidir. Bu, idmançı yetişdirməyin



metodikasında əsas amillərdən biridir. Biz də öz tərəfimizdən çalışırıq ki, bu məqamları nəzərə alaq.

***- Uzun müddət Gəncə və Göygöl Olimpiya idman komplekslərinin rəhbəri olmusunuz. Həmin ərəfələrdə kompleksin fəaliyyətində hansı məqamları nəzərə almısınız?***

- Bildiyiniz kimi, mən uzun müddət Gəncə və Göygöl Olimpiya idman komplekslərinin rəhbəri olmuşam. Bu sahədə fəaliyyət göstərərkən çalışmışam ki, kompleks öz təyinatı üzrə idmanın inkişafına və idmançıların yetişməsinə yüksək səviyyədə xidmət etsin. Qısa müddət ərzində biz böyük nəticələr əldə etdik. Kompleksdə ayrı-ayrı idman növləri üzrə yarışlar keçirdik. Nəticədə kütləviliyə nail olduq. Həmin ərəfələrdə idmana cəlb etdiyimiz yeniyetmələrin bəziləri bu gün Azərbaycan idmanının tanınmış simalarına çevriliblər.

***- Qeyd etdiyiniz kimi, idmanda kütləviliyə nail olmaq üçün xüsusi üsulunuz var. Bu daha çox idman komplekslərinin fəaliyyəti ilə əlaqədardır?***



- Əvvəlcə Olimpiya idman komplekslərinin və yerli idman idarələrinin rəhbərləri bir araya gəlib, rayonda hansı idman növlərinin daha çox inkişaf etdiyini, yaxud zəif olduğunu müzakirə etməlidirlər. Çatışmazlıqlar araşdırılmalı, həmin inkişaf etmiş idman növlərinin kompleksdə məşqləri təmin edilməlidir. Bu, cədvəl əsasında həyata keçirilməlidir. Həmin idmançılara nəzarət gücləndirilməli, onların məşqləri üçün mövcud imkanlar yaradılmalıdır. Bu idman növləri üzrə məktəblərdə təbliğat işləri aparılmalıdır. Sonra bu komplekslər arasında müxtəlif idman növləri üzrə yarışlar təşkil olunmalıdır. Bu yarışlardan sonra hansı komplekslərdə hansı idman növünün inkişafdan qalması özünü büruzə verəcək. Məhz bu yarışlardan sonra inkişaf etməyən idman növlərində problemlər araşdırılmalı, yeni mütəxəssislər cəlb olunmalıdır.

Ola bilsin ki, həmin idman növündə inkişafa mane olan səbəblərdən biri təcrübəli mütəxəssis çatışmazlığı ilə bağlıdır. Bunun üçün fikir mübadiləsi aparılıb, digər bölgələrin təcrübəli məşqçi müəllimləri kompleksə dəvət olunmalı, onların təcrübəsindən yararlanmalıdır. Bu çatışmazlıqlar aradan qaldırıldıqdan sonra yenidən yarışlar təşkil olunmalıdır. Belə olan təqdirdə komplekslər arasında rəqabət olacaq və rəhbərliklər idmanın inkişafında maraqlı olacaqlar. Belə olan halda təxminən 2-3 ildən sonra nəticə öz bəhrəsini verəcək. Beləliklə həmin idman bölmələrindən gələcəyin dünya, Avropa və Olimpiya çempionları çıxacaq.

***- Sahib müəllim, karatenin yetərincə növləri var. Siz daha çox onlardan hansına mükəmməl yanaşırsınız?***

- Hazırda dünyada karatenin bir sıra növləri var. Onların arasında akademik növlərə xüsusi önəm verilir. Bunlara şotakan, kyokşin, qocyu-ryu, vado-ryu növləri daxildir. Bu adlarını qeyd etdiyim idman növlərinin daha geniş bazası, fəlsəfəsi və ənənələri var. Əgər bir idman növünün nəzəriyyəsi, üsulu, fəlsəfəsi, bazası yoxdursa, bu idman növü ilə məşğul olmağı düzgün hesab etmirəm.

***- Uşaqların əlbəyaxa döyüş növləri ilə məşğul olmasına münasibətinizi bilmək istərdik.***

- Bu idman növləri ilə məşğul olmaq heç də birmənalı qarşılanmır. Hər kəs buna fərqli yanaşır. Mənim fikirimcə döyüş növləri ilə məşğul olmaq pis deyil. Lakin azyaşlı uşaqları döyüş növlərində yarışlara çıxarmaq düzgün deyil. Çünki bu onların gələcəkdə zədə və psixoloji sarsıntı almalarına səbəb ola bilər. Bunun üçün onları daha çox kata yarışlarında sınaqdan keçirmək lazımdır.

***- Milli Karate Federasiyasının Gəncə regional şöbəsi il ərzində hansı yarışların keçirilməsini planlaşdırır?***

- Biz hər ilin may ayında Gəncədə beynəlxalq yarış təşkil edirik. Bu ənənə bu il də davam etdiriləcək. Belə ki, may ayının sonunda yenidən Gəncədə karate üzrə açıq şəhər çempionatı keçiriləcək. Həmin turnirə qonşu ölkələri də dəvət etməyi planlaşdırırıq. Hesab edirik ki, bu işlər il ərzində davam edəcək. Məqsədimiz daha çox yarış keçirib, daha çox istedadlı idmançıları üzə çıxarmaqdır.

***Anar Əhmədov***

# FUTBOL

## AFFA-ya yeni baş katib təyin olunub



AFFA-nın İcraiyyə Komitəsinin iclasında AFFA-nın baş katibi vəzifəsinin indiyədək baş katibin müavini vəzifəsində çalışan Sərxan Hacıyevə həvalə olunması ilə bağlı qərar qəbul olunub.

O, yeni vəzifədə Elxan Məmmədovu əvəzləyib. E.Məmmədov 2007-ci ildən AFFA-da baş katib vəzifəsini tuturdu.

## Qətər-2022-nin 20-ci iştirakçısı müəyyənləşib

DÇ-2022-nin final mərhələsinin daha bir iştirakçısı müəyyənləşib. Torontoda Kanada Yamaykanı qəbul edib. 4:0 hesabı ilə qalib gələn kanadalılar mundiala vəsiqəni təmin edən 20-ci iştirakçı olub (32 komanda arasında). Onlar vəsiqəni Şimali və Mərkəzi Amerika zonası üzrə hazırkı qrup lideri kimi qazanıblar.

Qeyd edək ki, Kanada son 36 ildə ilk dəfə DÇ-nin final mərhələsində oynamaq hüququ əldə edib. Son dəfə onlar DÇ-1986-da çıxış etmişdilər.




Xatırladaq ki, bundan əvvəl Qətər (təşkilatçı ölkə kimi), Xorvatiya, Almaniya, Danimarka, Braziliya, Argentina, Belçika, Fransa, İspaniya, Serbiya, İngiltərə, İsveçrə, Niderland, İran, Cənubi Koreya, Yaponiya, Səudiyyə Ərəbistanı, Uruqvay, Ekvador da DÇ-2022-yə vəsiqə qazanıblar.

DÇ-2022 21 noyabr -1 dekabr tarixlərində Qətərdə keçiriləcək.

## Türkiyə və İtaliya yığmaları dünya çempionatından kənarda qaldı

2022-ci il dünya çempionatının Avropa zonası üzrə pley-off oyunları keçirilir. Türkiyə, İtaliya və Avstriya yığmaları 2022-ci il dünya çempionatına vəsiqə qazana bilməyib.



Portu şəhərindəki “Draqau” stadionunda təşkil olunmuş qarşılaşmada ilk iki qolu birinci hissədə Portuqaliya millisinin futbolçuları Otavio və Dioqo Jota vurub. Matçın 65-ci dəqiqəsində Türkiyə millisinin kapitanı Burak Yılmaz fərqi azaldıb. Lakin o, 85-ci dəqiqədə penaltini dəqiq yerinə yetirə bilməyib. Almaniyalı referi VAR sisteminə müraciət etdikdən sonra 11 metrlik cərimə zərbəsi təyin etsə də, təcrübəli hücumçu topu qapıdan kənara vurub. Matçda son nöqtəni isə meydan sahiblərinin futbolçusu Mateus Nunes 90+4-cü dəqiqədə qoyub.



Portuqaliyanın finalda rəqibi İtaliyaya qalib gələrək, sensasiyaya imza atan Şimali Makedoniya olacaq. Bu görüşdə yeganə qolu 90+2-ci dəqiqədə Aleksandar Traykovski vurub.

Uels yığmasının lideri Qaret Beyl isə 25-ci və 51-ci dəqiqələrdə dubl edərək, komandasını finala yüksəldib. Onun komanda yoldaşı Ben Devis avtoqol müəllifi olsa da, qələbə yenə britaniyalıların olub. Uels finalda iyuna təxirə salınmış Şotlandiya - Ukrayna görüşünün qalibi ilə üz-üzə gələcək.

Qeyd edək ki, pley-off mərhələsində yarımfinal və final görüşlərindən sonra dünya çempionatına yollanacaq daha 3 yığma bəlli olacaq.

## Canni De Byazi:“Yaxşı oynasaq, topla rahat davransaq...”



“Malta ilə oyuna görə narahat idim. Əminəm ki, komanda daha artığını edə bilər. Oyunumuzla bunu göstərməliyik İlk növbədə özümüzə inanmalıyıq”.

Bu sözləri Azərbaycan millisinin baş məşqçisi Canni De Byazi Latviyaya qarşı keçirəcəkləri yoldaşlıq oyunundan əvvəl mətbuat konfransında deyib.

66 yaşlı mütəxəssis Malta ilə görüşdən sonra futbolçularla danışdığını bildirib: “Taktiki problemlərimiz oldu. İki məşq keçməyimizin də buna təsiri oldu. Bu qarşılaşmada ən yaxşı oyunumuzu göstərməliyik. Ötən matçda taktiki problemlər oldu. Həmişə bildiyimiz oyuna qayıdacağıq”.

İtalyalı baş məşqçinin fikrincə, yaxşı oyun göstərsələr, futbolçular mövqelərində bacardıqlarını edə bilsələr, nəticə qazanmaq mümkün olacaq: “Yaxşı oynasaq, topla rahat davransaq, bir-birimizi meydanda dəstəkləsək, hər bir rəqibə qarşı oynaya bilərik. Futbolda mümkün olmayan bir şey yoxdur. Reytinqdə 67-ci pillədə olan Şimali Makedoniya İtaliyaya qalib gəldi. Bunun üçün ən əsası özümüzə inanmalıyıq”.

## *“Uşaqlar bir-birini başa düşə, uyğunlaşa bilmirdilər”*

“Malta ilə fərqli oyun sistemi ilə çıxış etdik. Bunları lövhədə göstərmək mümkündür, meydanda etmək isə çox çətindir. Çünki hər bir futbolçu həmin situasiyanı dərk etməlidir”.



Bu barədə Azərbaycan millisinin kapitanı Maksim Medvedev Latviyaya qarşı keçirəcəkləri yoldaşlıq oyunundan əvvəl mətbuat konfransında deyib.

33 yaşlı müdafiəçi bildirib ki, futbolçuların verilən tapşırıqları düzgün yerinə yetirə bilməmələri bir kapitan kimi onun özünə də pis təsir edib: “Bəzi məqamlarda futbolçular tapşırıqları düzgün yerinə yetirməyəndə xaos yaranır. Heç kim belə olmasını istəmirdi. İrlandiyaya qarşı daha konstruktiv hücumlar qururduq. Malta onlardan səviyyəcə aşağı olsa da, biz ikinci nömrə kimi oynayırdıq. Uşaqlar bir-birini başa düşə, uyğunlaşa bilmirdilər. Psixoloji və media tərəfdən üstümüzə hücumlar gəlir. Bəziləri sosial şəbəkələrə baxır, təzyiqləri qəbul edə bilmirlər. Oyunçular meydana rahat çıxsalar, Maltaya 2-3 qol vurarlar. Elə oyunlar olur ki, gah eniş, gah artım olur. 90 dəqiqəni eyni səviyyədə keçirmək lazımdır”.

## “Ukrayna millisinin Qətərə yollanması bütün dünyanın arzusudur”

Britaniyanın tanınmış jurnalisti Cim Uayt maraqlı təkliflə çıxış edib. O, Ukrayna millisinin birbaşa dünya çempionatının final mərhələsinə buraxılmasını istəyib.

Jurnalistin fikrincə, indiki məqamda Ukrayna yığmasının mundiala yollanması Uels və Şotlandiyanın vəsiqə qazanmasından daha vacibdir:



“Uelsli Qaret Beyl və şotlandiyalı Endi Robertson dünya çempionatı arzularından əl çəkməlidirlər. Çünki hamı Andrey Yarmolenko və onun Ukraynanın mundialda iştirakını istəyir. Uels və Şotlandiya kənara çəkilməli, nə qədər çətin olsa da, Ukraynanı DÇ-2022-yə buraxmalıdır. Ağır vəziyyətdə olan Ukrayna ilə pley-off oyunları Uels və Şotlandiya üçün mənəvi problemdir. Ukrayna millisinin Qətərə yollanması bütün dünyanın arzusudur”.

Qeyd edək ki, Ukrayna millisi DÇ-2022-nin pley-off mərhələsinin yarımfinalında Şotlandiya ilə qarşılaşmalıdır. Bu cütlüyün qalibi finalda Uelslə üz-üzə gələcək.

## AVRO-2028 üçün daha bir namizəd

Türkiyə Futbol Federasiyası (TFF) 2028-ci ildə keçiriləcək Avropa çempionatının final mərhələsinin ölkədə təşkili üçün UEFA-ya rəsmi namizədlik müraciətinin edildiyini açıqlayıb. Artıq Türkiyə ilə yanaşı, Yunanıstan, Bolqarıstan, Serbiya, Rumıniya, Böyük Britaniya, İrlandiya və Rusiya AVRO-2028-i keçirmək üçün UEFA-ya müraciət ünvanlayıb. UEFA AVRO-2028-in keçirilməsi ilə bağlı qarşıdakı dövrdə namizəd ölkələrin təkliflərini qiymətləndirdikdən sonra qərar verəcək.

Qeyd edək ki, UEFA Rusiya Futbol İttifaqının 2028 və ya 2032-ci ildəki Avropa çempionatına ev sahibliyi ilə bağlı müraciətini rədd etməyə çalışır.

Qitə futbol qurumunun rəhbərliyi məsələ ilə bağlı təcili toplantı keçirmək niyyətindədir. Ərizənin rədd edilməsi ilə bağlı addımlar artıq işlənmə mərhələsindədir.

Yarışlarla bağlı qərar 2023-cü ilin sentyabrında açıqlanacaq.

# Futbol ulduzları qalereyasından...





*Mobil İSMAYILOV*

Futbol ulduzlarının əksəriyyəti barədə filmlər, kitablar mövcuddur. Bu filmlərdə, kitablarda onlar haqqında zəngin məlumatlar vardır. Ətraflı məlumatlar əldə etmək istəyənlər internetə baş vura bilərlər. Amma təqdim etdiyim yazıda mənim deyəcəklərim yəqin ki, orada yoxdur. Bu baxımdan düşünürəm ki, yanaşmalarım və şəxsi mülahizələrim hər bir halda maraq doğuracaqdır.

## Futbol piramidası

Futbol piramidası da var. Futbolun əfsanələri üst mərtəbədədirlər. Sonra o biri mərtəbələr gəlir. Ulduz futbolçular bu mərtəbələrə paylanır. Bu mərtəbələr bir-biri ilə sıx surətdə bağlıdır. Yəni, biri olmasa, digəri də olmaz. Bu piramidada mərtəbələrin yerini ədalətsizliyə yol verib qeyri-obyektiv şəkildə dəyişmək olmaz. Piramidanı çevirmək də mümkün deyildir. Əks halda aşağı səviyyəli futbol görərik...



Mənim özümün də "qurduğum" piramida var. Bu piramidada da kimsə yuxarıdadır, kimsə də aşağıda... Bir var ulduz futbolçular, bir var super ulduzlar, bir də var əsl fenomenlər, yəni , dahi futbolçular. Dahi, super ulduz futbolçulara əfsanəvi futbolçular da deyirlər. Əlbəttə, belə bir bölgü şərti, nisbi məna daşıyır. Dahi futbolçular tərəddüdsüz, birmənalı hamı tərəfindən qəbul olunanlardır. Ulduz futbolçulara yanaşmada isə fərqli mütəxəssis, azarkeş fikirləri də ola bilər. Dahi, əfsanəvi futbolçuları digər futbol ulduzlarından fərqləndirən əsas amil budur ki, onların pik həddə çatdıqları, zirvələri fəth etdikləri zaman heç bir zəif cəhətləri olmur. Futbolçu kimi ideal görünürlər.

Fenomen dahi futbolçular, super ulduzlar əvvəlki yazılarımda yer alıb. Bu dəfə futbol ulduzlarından söz açacağam. Özü də mənim qalereyama daxil olan ulduzlardan...

## Öz janrı olan futbolçular

Futbol ulduzları da dünya səviyyəsində tanınan futbolçulardır. Belə futbolçuların öz janrı olur. Əslində ulduz futbolçular da Hollivud ulduzlarına bənzəyir. Sevilənləri də var, heyranediciləri də var, tam qəbul edilməyənləri də. Amma hər bir halda onlar əsl ulduzlardır: parlaq və müəmmalı, təbəssümlü və ya qaraqabaq, sərt, iddialı və ya təvazökar...

Vaxtı ilə futbolu teatra bənzədirdilər. Daha doğrusu, söhbət 60-70-ci illərdən gedir. Hər iki peşə sahibində - aktyor və futbolçuda oxşarlıq var idi. Yəni, hesab edirdilər ki, hər ikisi tamaşaçılar qarşısında həm imtahan, həm də hesabat verirlər. Hazırlıqları da təxminən eyni cür qiymətləndirilirdi. Bu, o vaxtlar idi ki, insanlar axşamdan başlayaraq növbədə durub bilet alardılar. Çünki futbol günü bilet tapılmazdı. Sonradan zaman dəyişdi. İndi sosial şəbəkələrdə şəkil çəkdirmək dövrüdür...

## Elə isə, gəlin, əvvəlcə keçmişə qayıdaq, görək nə var oralarda...

Azərbaycanda futbolsevərlər Anatoli Banişevskini futbolumuzun simvolu hesab edirdilər. Yaşlı nəslin təsəvvüründə Banişevski o illərin futbol əfsanəsi kimi canlanır. Qısa müddət ərzində möhtəşəm oyun tərzi ona inanılmaz şöhrət gətirdi. Banişevski bir çox ulduz futbolçuların illərlə vaxt sərf edərək qalxdığı zirvəni cəmi iki ilə fəth etmişdi. Yadımdadır, hamı onun növbəti oyununu səbirsizliklə gözləyirdi. Ulduz kimi parlayandan sonra özünə həddən artıq güvənmə, arxayınçılıq, idman formasına etinasızlıq və məşqlərə qatılmamaq hərdən ona baha başa gəlirdi. Ustalığına o qədər arxayın idi ki, müdafiəçiləri həmişə olduğu kimi çaş-baş salacağına və qol vuracağına əminlik yaranırdı. Bu da hərdən onun oyun stabilliyinə təsir edirdi. Buna görə də nadir hallarda, necə deyərlər, yola verdiyi oyunlar da olurdu. Ancaq hətta futbol dahilərinin də hərdən yola verdikləri oyunlar olub. Bəli, nə etmək olar, bu, belə olub, bu futboldur... Banişevskinin elə oyunları olurdu ki, müdafiəçilər sanki tilsimlənirdilər. Sanki ayaqları bağlanan müdafiəçilər belə anlarda çox çarəsiz görünürdülər. Gözəl futbol xatirələrini özündə birləşdirən Banişevski hamının sevimlisi olub. Onu yaxından bir dəfə - " İnturist" mehmanxanasında görmüşdüm.

Yeri gəlmişkən, sovet futbolunun əfsanələri Voronin və Streltsov da intensiv məşqlərə qatılmayıblar. Ya da sadəcə məşqlərə gəlmələri ilə göründü yaradıblar. Eləcə də bərk siqaret çəkən olan Mişel Platini karyerasının son illərində, ümumiyyətlə, məşqlərdən yayınıb. Maraqlıdır ki, ən yaxşı formasında olan illərdə belə, siqaret onun əla oyun tərzinə təsir etməyib. Məşhur sovet futbolçuları Lev Yaşin, Valentin İvanov da möhkəm siqaret çəkən olublar. Əfsanəvi Corc Best isə...Söhbətin nədən gedəcəyini futbolsevərlər duydu yəqin. Ona görə də fikrimin davamını gətirmirəm...

Sonradan Kiprdə tanış olduğum





Qutsayevin meydanda rəqib komandanın oyunçularını sanki hipnoz edən qeyri-adi baxışları var idi. Maraqlı tərzdə hər yana, yaxud bir səmtə ötəri, elə-belə anicə baxardı. Bir anlıq nəzərlərdən sonra qəflətən sanki sıxılmış yay kimi açılardı. Hələ bu baxışlardan "ayılmayan" rəqib futbolçular çaşıb qalardılar. O illərdə bir dəfə "Sovetskiy sport" yazmışdı: "Qutsayevin oxşarı yoxdur. O, heç kimə oxşamır. Digərləri bir-birinə bənzəyir. O isə yox." Əlbəttə, bəlkə də redaksiyaya bir "gürcü" təsiri də olub o vaxt yəqin.

SSRİ dövründə futbolda "ulduz" anlayışına yer verilmirdi. Bununla belə sovet futbolunda da özünü təsdiq etmiş futbolçular var idi. Kiyevin "Dinamo" komandasında xoşladığım futbolçuları indi də xatırlayıram. Serebryannikov, Bloxin, Bessonov, Demyanenko belələrindəndir.

Rəğbət bəslədiyim braziliyalılar isə üstünlük təşkil edirdi. Onlar çoxdur, ona görə də sadalamağa ehtiyac duymuram. Uzun illər təkrarsız Maradona ilə birlikdə oynamış Klaudio Kaniccanı da çox bəyənirdim.

## Adlarını futbol tarixinə həkk etdirənlər

Elə ulduz futbolçular var ki, illər keçsə də, unudulmaz olaraq qalırlar. Belələrinin qarşısına mən üstəgəl işarəsi qoyuram. Futbol həvəskarlarına yaxşı tanış olan Matteusdan başlamaq istəyirəm. Geniş diapazonlu, hərtərəfli futbolçu keyfiyyətlərinə malik olan bu almanı çox bəyənirdim. "Yuventus"da oynamış Edqar Davids mübarizliyi, çeldliyi, sürəti, döyüşkənliyi, matçın sonuna qədər yorulmayan Karles Puyolla eyni tərzli futbolçu olub. Fərqli mövqelərdə - Puyol müdafiədə, Davids isə yarımmüdafiə xəttində oynayıblar. Hər ikisi meydanda cəngavər kimi təsir bağışlayıblar.

Milli təəssübkeşlik, millətinin tarixin yaddaşında möhkəmləndirilməsi, vətənpərvərlik baxımından katalon futbolçular Puyol və Pike öz vətənlərində daha çox sevilirlər. Onlar millətçi olduqlarını heç vaxt gizlətməyiblər. Məhz, bu səbəbdən ispanlar onları xoşlamırlar.

"Bavariya"nın və Almaniya yığmasının yarımmüdafiəçisi Mixael Ballak həmişə yaxşı plemeyker hesab olunub. Zeedorf "Real"da oynadığı vaxtlar özünəməxsus oyun stili ilə seçilirdi. Xarici görünüşü, çeldliyi, qaçış tərzi, meydanın hər yerində olması Davidsi xatırladırdı. Zeedorfun ən yaxşı illəri sonradan "Milan"a təsadüf etdi. Frenk Lempardı da dünyanın ən yaxşı yarımmüdafiəçilərindən biri hesab edirəm.

Ümumiyyətlə, əzmkar, mübariz futbolçular həmişə yadda qalır və azarkeşlər onları sevirlər. Çexiyalı Pavel Nedved də belələrindən olub. "Yuventus"da onun xidmətləri danılmazdır. Futbol həvəskarları, mütəxəssislər onu ekstraordinar oyunçu kimi yüksək qiymətləndirirdilər. Bir göz qırpımında onu gah müdafiədə, gah da hücumda görmək olurdu. Özü də 90 dəqiqə ərzində eyni tempdə oynayırdı. Nedved həm də ən yaxşı "dirijorlardan" sayılırdı. Aktiv oyunu da onun "dirijorluğunu" tamamlayırdı. Qüvvətli alınan cərimə zərbələrini də ustalıqla yerinə yetirirdi.

*(ardı var)*

# Dünya idmanı



## Dünyanın bir nömrəli tennisçisi karyerasını başa vurdu

Böyük Dəbilqə turnirinin üççat qalibi, dünyanın bir nömrəli qadın tennisçisi Eşli Barti 25 yaşında peşəkar karyerasını başa vurub. Avstraliyalı idmançı bu barədə Qadın Tennis Assosiasiyasının rəsmi saytına açıqlama verib. O bildirib ki, artıq başqa məqsədlərə çatmağa çalışmağın vaxtıdır: "Kiçik yaşlarımdan tennis oynayıram. Artıq 18 yaşım olanda tennisə uzun fasilə vermişdim. Həmin vaxt, sadəcə, normal yeniyetmə həyatı yaşamaq və bundan həzz almaq istəyirdim. Tennis bütün arzularımı və hətta daha çoxunu həyata keçirdi. Düşünürəm ki, artıq raketkaları atmaq zamanı çatıb".



Qeyd edək ki, Eşli Barti 2019-cu ildə "Rolan Qarros" (Fransanın Açıq çempionatı), 2021-ci ildə Uimbldon, bu il isə Avstraliya Açıq Çempionatının qalibi olub.

## Formula 1: Səudiyyə Ərəbistanı Qran-prisinin qalibi məlum olub

Formula 1 üzrə Səudiyyə Ərəbistanı Qran-prisinə yekun vurulub. 50 dövrəlik mübarizənin qalibi adını son dünya çempionu Maks Ferstappen qazanıb. "Red Bull"un nidərlandlı pilotu "Ferrari" pilotları Şarl Lekler və Karlos Saynsı geridə qoyub. "Red Bull"un meksikalı pilotu Serxio Peres isə dördüncü olub.

Mövsümün ikinci Qran-prisindən sonra xalını 45-ə çatdıran Ş.Lekler şəxsi hesabda liderliyini möhkəmlədib. K.Sayns 33 xalla 2-ci, M.Ferstappen 25 xalla 3-cüdür.

Konksruktorlar Kubokunda "Ferrari" 78 xalla 1-ci, "Mercedes" 38 xalla 2-ci, "Red Bull" 37 xalla 3-cüdür.



**olimpnews.az - sizin saytınız**




## Dünya çempionunun medalını oğurladılar

İngiltərənin "Mançester Yunayted" klubunun futbolçusu Pol Poqbanın 2018-ci ildə Fransa millisinin heyətində Rusiyada keçirilmiş dünya çempionatında qazandığı qızıl medal oğurlanıb. Bu barədə 29 yaşlı yarımmüdafiəçi "Le Figaro" nəşrinə açıqlama verib. Təcrübəli oyunçu bildirib ki, soyğunçular çempionluq medalı ilə yanaşı, anasına məxsus qızıl-zinyət əşyalarının olduğu seyfi də aparıblar: "Məni ən çox qorxudan hadisə vaxtı iki övladımın dayə ilə birlikdə evdə olmasıdır. Dayə hər şeyi eşidib və dərhal polisə məlumat verib. Daha sonra uşaqlarla birlikdə otağa daxil olaraq qapını arxadan bağlayıb".



Qeyd edək ki, oğurluq hadisəsi "Mançester Yunayted"in evdə İspaniyanın "Atletiko" (Madrid) komandasına qarşı keçirdiyi UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab oyunu (0:1) zamanı baş verib.

## PSJ-nin qapıçısından nəcib addım

Fransanın PSJ klubunun qapıçısı Keylor Navas ukraynalı qaçqınlara kömək edib. 36 yaşlı qolkiper Parisdəki evində 30 nəfəri yerləşdirib. Kosta-Rikadan olan oyunçu onlar üçün 30 çarpayı da alıb. Qeyd edək ki, Keylor Navas hazırda Kosta-Rika millisinin düşərgəsindədir. Yığma son olaraq bu gün dünya çempionatının seçmə mərhələsinin XII turunda evdə Kanadanı minimal hesabla üstələyib - 1:0.

## Daha iki futbolçunun adı Şöhrət Zalına daxil edilib

İngiltərədə daha iki veteran futbolçunun adı Premyer Liqanın Şöhrət Zalına daxil edilib. Bunlar "Mançester Yunayted"in keçmiş hücumçusu Ueyn Runi və "Arsenal"ın keçmiş yarımmüdafiəçisi Patrik Vieyradır.

Daha əvvəl "qırmızı şeytanlar"dan Devid Bekhem, Erik Kantona və Roy Kinin, "topçular"dan isə Tyerri Anrinin adları Şöhrət Zalına salınıb.

Qeyd edək ki, Ueyn Runi 2004 - 2017-ci illərdə "Mançester Yunayted"in formasını geyinib. Patrik Vieyra isə 1996 - 2005-ci illərdə "Arsenal"da çıxış edib.

## "Reallıq odur ki, məndən yaxşısını görənə qədər oynayacağam"

"Gələcəyim hələ bəlli deyil. Karyeramı indi bitirdiyim üçün sonradan peşman olmaq istəmirəm".

Bunu İsveç yığmasının hücumçusu Zlatan İbrahimoviç UEFA-nın rəsmi saytına açıqlamasında deyib.

Hazırda "Milan"ın formasını geyinən 41 yaşlı forvard karyerasını bitirməyə tələsmədiyini söyləyib: "Bacardığım qədər oynamaq istəyirəm. Reallıq odur ki, məndən yaxşısını görənə qədər oynayacağam. Ona görə də, hələ davam edirəm. Bilirəm ki, bir gün hər şey bitəcək. Futbol oynayanda adrenalin olur. Bu enerjini başqa heç nədən almaq mümkün deyil. Bitirdikdən sonra da bunu qəbul etməli və yeni işə sıfırdan başlamalısan".

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi MOK-un İdman İdarəsinin rəisi Həsənağa Rzayevə, atası

**Nazim Həsənağa oğlu Rzayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin kollektivi MOK-un İdman İdarəsinin rəisi Həsənağa Rzayevə, atası

**Nazim Həsənağa oğlu Rzayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi MOK-un İdman İdarəsinin rəisi Həsənağa Rzayevə, atası

**Nazim Həsənağa oğlu Rzayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi MOK-un İdman İdarəsinin rəisi Həsənağa Rzayevə, atası

**Nazim Həsənağa oğlu Rzayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi məktəbin direktoru Cəfər Hümbətova, əzizi

**Zərnişan xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov və kollektivi Cəfər Hümbətova, əzizi

**Zərnişan xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Cəfər Hümbətova, əzizi

**Zərnişan xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19